Xalq qəzeti.- 2025.- 8 mart (№ 52).- S.14.

**Qənirə Paşayeva – 50**

# Turan sevdasının Qənirə pərvanəsi

**Türk dünyasının tanınmış qızı, Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət Komitəsinin keçmiş sədri, şair və jurnalist həmkarımız Qənirə Paşayevanın yarıməsrlik yubileyi onsuz keçir. İlyarım əvvəl haqq dünyasına qovuşmuş Qənirə xanımın tükənməz həyat eşqi, ictimai-siyasi fəallığı bu gün də bir örnək kimi xatırlanır.**




O, 1975-ci ilin bir yaz günü Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olub. Dövlət Tibb Universitetinin pediatriya və Bakı Dövlət Universitetinin beynəlxalq hüquq fakültələrini bitirib. Bir müddət telereportyor, müxbir, redaktor kimi çalışaraq tamaşaçıların rəğbətini qazanıb. Sonra 4 çağırış Milli Məclisinin deputatı olub, son illərdə parlamentin Mədəniyyət komitəsinə sədrlik edib. Fədakar fəaliyyəti, fəal çalışmaları ilə Azərbaycan–Türkiyə qardaşlığına, Turan ellərinin birliyinə layiqli töhfələr verib.

Mərhum Qənirə xanımın Türkiyənin 40-dan çox universitetində keçirdiyi konfranslardakı nitqləri yadda qalıb. Onun şəxsi təşəbbüşü ilə qardaş ölkənin müxtəlif bölgələrində Xocalı və Qarabağ parklarının açılışında, Zəfərimizin təbliğində sanballı xidmətləri olub. Təsadüfi deyil ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Dünya Axıska Türklərinin qurultayındakı çıxışında Qənirə Paşayevanın “Axıska” şeirini çox böyük sevgi ilə səsləndirib.

Qənirə Paşayeva duyğu və düşüncələrini poetik dillə gözəl ifadə edirdi. Kövrək notlu “Ana” şeiri həm də onun özünün tale yazısı idi.

***Tonqala atılan Jannadan,***
***Vətən uğrunda Kirin başını kəsən***
***Tomrisdən,***
***İsgəndərə ədalət dərsi keçən***
***Nüşabədən,***
***Sevgi şəhidi Leylidən***
***daha çox yaşadım, ana!***
***Amma nə Tomris ola bildim,***
***Nə Nüşabə, nə Janna.***
***Leyli də ola bilmədim, ana...***

Əslində isə Qənirə xanım qısa ömründə dövrünün Jannası da, Tomrisi də, Nüşabəsi də olmaqla yanaşı, Türk Dünyasının Asenası da oldu. Onun zəhmətlə hasilə gətirdiyi “Tarixə adını yazan qadınlar” üçcildliyində dünya ölkələrindəki ünlü qadınlarla yanaşı, Azərbaycan tarixində özünəməxsus imzasını qoyanlardan – ilk xanım hökmdar Tomris, ilk qadın diplomat Sara Xatun, hamımıza öz zərifliyi, uzaqgörənliyi ilə örnək olan birinci xanım Mehriban Əliyevadan və tariximizdə, mədəniyyətimizdə öz sözünü deyən digər qadınlardan məhəbbətlə bəhs edir. “Mən hər şeyi bacaracam” devizi kitabın əsas ideyasıdır ki, insana əzm, iradə və yüksək həyat eşqi aşılayır.

Maarifçilik fəaliyyəti onun ali insani keyfiyyətlərini xarakterizə edən başlıca cəhət idi. Qənirə Paşayevanın aktual mövzularda qələmə aldığı çoxsaylı elmi-kütləvi və publisistik məqalələr, müəllifi olduğu ssenarilər diqqət çəkib. Onun trilogiya təşkil edən “Məndən sonra”, “Səndən sonra” və “O” kitabları da oxucular tərəfindən maraqla qarşılanıb. Əsərləri Təbrizdə, Ankarada, İstanbulda, Daşkənddə də nəşr olunub. Bir neçə ay əvvəl Türkiyənin paytaxtında “Qənirə Paşayeva. Portreti” kitabı çıxıb. Sanki ömrünün tez sona yetəcəyini bilibmiş kimi, kitablarından birinin adını “Hesab vaxtı” qoyub.

Bu gün aramızda olmayan Vətəncanlı, xeyirxah ziyalı Qənirə Paşayeva siyasətdə də, ədəbiyyatda da, insan münasibətlərində də göründüyü kimi olanlardan idi. Seçicisi olmayan vətəndaşlar belə inamla ona müraciət edir və müşkülləri həllini tapırdı.

Qənirə xanımın xatirəsinin əziz tutulması da fərəh doğurur. Ötən payız Azərbaycan Milli Xalça Muzeyində “Qənirə Paşayeva – İTHAF” adlı bədii sərgi təşkil edilib. İki gün öncə Bakıda qadınlar arasında beynəlxalq şahmat turniri keçirilib. Beynəlxalq Avrasiya Araşdırmaları İctimai Birliyinin rəhbəri Kəmalə Paşayeva bacısının həm də güclü şahmat həvəskarı olduğunu bildirib və deyib ki, buna görə də bu turnir, burada qalib gələn qadınların uğuru onun ruhunu şad edəcək. Daha öncə Ankaranın Etimesqut rayonunda, bu yaxınlarda isə Kırşehir bələdiyyəsində Qənirə Paşayeva adlına parklar yaradılıb.

***Ə.ƏLİYEV***
***XQ***